

■ Həcər

# Şərabdan şirin

*hekayə*

**Başqasının eybini gizlətməkdə gecə kimi ol.**

*İmam Əli.*

Axşam yenicə düşmüşdü. Bu kiçik şəhərin üzərinə qara pərdəsini çəkən gecə hər şeyi zülmətə qərq etmiş, adda-budda yanan küçə lampaları elə adda-budda, ala-tala işığı ilə dənizdə görünən kiçik adalar kimi bu qaranlıq ümmanda xırda işıq cəzirələri yaratmışdı. Gecə zülmətdir və içində gecə kimi qapqara zülməti daşıyanlar onu fürsət bilərək günahkar əməllərin ardınca qaranlığın qara qılafına bürünüb kimsəyə görünmədən, əyilə-əyilə, sivişə-sivişə, xəncər qınından sivrilən kimi gecədən sivrilib məqsədlərinin ünvanı olan və mələklərin gözüyaşlı, başını bulayaraq çıxdığı, şeytanın məskən salıb çəpik çaldığı odaların içinə soxularlar. Gecə təkcə eyibləri örtmür, ən böyük günahların və cinayətlərin də üzərini örtür.

Cürbəcür bazarlıq şeyləri ilə dolu torbaları maşından götürüb qapını örtdü. Qarşıda onu gözləyən görüşün şirin həyəcanı indidən bütün vücudunu bürümüşdü. Kiçik taxta darvazanı tələsik açıb həyətə girdi. Evin işığı pəncərədən həyətə düşür, evə gedən dar cığır bu işıqda güclə görünürdü. Yaxınlaşıb qapını itələdi. Bağlı idi. Şərtləşdikləri kimi iki qısa, bir uzun və yenə iki qısa tıqqıltı ilə qapını döydü. Qadının ortaboylu dolu bədəni, açıq şəkildə kürəyinə tökülən qara, burulmuş saçları, əsməri sifəti qapının ağzında göründü. Bir əli ilə xalatının açıq yaxasını bürmələməyə çalışan qadın o biri əli ilə kişinin biləyindən tutub içəri çəkdi və cəld qapını örtdü. Kişinin üzünə baxmadan gətirdiyi bazarlıq şeylərini alıb mətbəxə keçdi və tez də geri qayıtdı. İri, ala gözlərini qonağının üzünə zilləyərək bir az ərköyünlük qarışıq tənəli səslə:

- Niyə belə gəlirsən, - dedi, - üç gündür, səni gözləyirəm?

- Demişdim axı, uşaqları yaylağa aparacam. Həm də evdə işlərim vardı. Ev tikdirirəm. Tikinti materialları daşımaq, buldozerlə yer açmaq, ustaları...

Qadın yenə incik və tənəli səslə:

- Yaxşı görək. Ev tikdirirəm... Tikdir evi. Adamı unudarlar ev tikdirəndə?

Hardan belə birdən ağlına gəldi ev tikmək? O evdən mənə haçan tikdirəcəksən?

Qadının onu bu cür incik və soyuq qarşılayacağını gözləmirdi. Azca pərt olmuşdu. Dalbadal verilən sualların hansına cavab verəcəyini kəsdirməyə çalışana qədər qadın yenidən dilləndi:

- Həqiqi sözümdü, çoxdan demək istəyirdim sənə. Bu ev köhnəlib, xoşuma gəlmir, həm də məhəllə içidi, həyəti də balaca. Buranı satıb şəhər kənarında bir az torpaq almaq istəyirəm. Ev tikmək isə sənə baxır. O vaxtacan kirayə qalaram. Restoranda işlər pis getmir, kirayə haqqını verə bilərəm.

O, bu sözləri deyə-deyə kişinin gözlərinin içinə baxır, onun necə reaksiya verəcəyini, beynindən keçən fikirləri oxumağa çalışırdı. Bic və iti qadın gözləri beyinin içindəkiləri belə oxumağa qadirdi. Onun azca pörtmüş sifətindən, dodaqlarını kip sıxaraq susmasından, ifadəsi dəyişilərək qıyılıb baxan gözlərindən kişinin əsəbiləşdiyini duydu və ağzını açmağa macal verməyərək:

- Əzizim, canım, bu nə ev söhbətidi eey saldıq ortaya? Neçə gündü görüşmürük. Darıxmışam, həqiqətən, səndən ötrü çox darıxmışam, - deyib onun dizinin üstündə oturdu. Başını qucaqlayıb tünd ətir iyi verən sinəsinə sıxdı. Qadın onu əsəbi vəziyyətdən çıxarmaq, özünə gətirmək üçün üzünü, gözlərini, dodaqlarını, sinəsini öpüşlərə qərq etdi. Əsəbin, həzzin, həyəcan və ehtirasın burulğanında gicəllənən kişi onu qucağına alıb səndələyə-səndələyə yataq otağına keçdi, çarpayının üstünə qoydu. Qadının soyuq mühakiməli iti ağlı, vəziyyətdən istifadə etmək bacarığı yenə işə düşdü. Astaca pıçıldadı:

- Qəşəng şərab gətiriblər. Bəlkə, bir tikə çörək yeyəsən. O şərabdan da iç, dadına bax, gör nə yaxşıdı. Sonra...

- İstəmirəm şərabı-zadı. Mənim şərabım sənsən, sən şərabdan şirin, ondan məstedicisən. Sonra içərik.

Qadın onu əsəbiləşdirəcəyindən, işi pozacağından ehtiyat edərək:

- Yaxşı, qalsın sonraya, - dedi.

Yeməkdən sonra yenə söhbəti fırlayıb evin üstünə gətirdi :

- Bilirsən, Şahin, bayaq zarafat eləmirdim. Sənin işin yaxşıdı. O böyüklükdə idarəyə rəhbərlik eləyirsən. Mən səndən imarət istəmirəm ki... Elə dörd-beş otaqlı, kürsülü ev olsun, bəsimdi. Hamı bilir ki, sənin sevgilinəm. Sənin qorxundan bir adam mənə yaxın düşə bilməz. Heç düşsə də, kimdi qeyrisini yaxına qoyan. Allah vurmuşdu hamısını. Gözüm səndən başqasını görməz. Mənim bu cür evdə yaşamağım da sənə yaraşmaz.

Bu "başqası" söhbəti kişinin qanını qaraltdı. Qadın onun incə, həssas yerinə toxunurdu. Onun "adam"ına yaxın düşəni öldürərdi. İri, ətli əlləri ilə başını, üzünü övkələyib əllərini çənəsinin altına söykəyərək düz qadının gözlərinə baxdı:

- Yaxşı, Marqo, sənə ev tikdirəcəm. Amma indi yox. Özümünkü qurtarsın, sonra. Evdə söz vermişəm, uşaqlar yaylaqdan qayıdana qədər evi hazır eləməliyəm. Birbaşa təzə evə gəlsinlər. Qızım çox istəyir.

Qadının bu "sonra" sözündən qanı qaralsa da, ürəyində sevindi. Çünki ondan söz almışdı və bilirdi ki, Şahin verdiyi sözə əməl edəndir.

Artıq avqustun axırı idi. Dərslərin açılmasına lap azca qalmış Şahin ailəsini yaylaqdan birbaşa məhəllədə ata evinin yerində tikdirdiyi təzə evə gətirdi. Yoldaşının, uşaqlarının sevinci yerə-göyə sığmırdı. Ev bir kişinin bir qadına verəcəyi ən gözəl, önəmli və böyük hədiyyədir.



Uşaqlar otaqlarda ora-bura qaçır, hər kəs öz otağının əşyalarını daha çox tərifləyir, utancaq, sakit, çox azdanışan yoldaşı sevinc və sevgi, təəccüb, fərəh, qürur, minnətdarlıq dolu baxışlarını ərinə zilləyərək:

- Ay Şahin, sağ ol eey, vallah, üç aya bu qədər işi necə qurtardın? Köçməyə kim kömək elədi? - deyirdi.

- Nigar, tikdirdim də. Bütün ustaları tökdüm, tikdilər. Köçməyə də sizinkilər, bizimkilər əl atdılar. Daha nə istəyirsən, yaşa...

Şahinin ailəsi ilə yeni mənzilə köçdüyünü eşitdikdən sonra Marqonun nazlanmaları, tələbləri, tənələri artmağa başlamışdı. Şahin ona təzə evə köçdüyünü deməmişdi, amma qadının bunu hardansa bildiyini duymuşdu. Marqo da bir dəfə olsun Şahindən yeni evə köçməyi barədə bir kəlmə soruşmadı, ancaq bundan sonra qadın ara-sıra, lakin təkid və inadla öz evinin tikintisinə nə vaxt başlaya biləcəklərini soruşurdu. Olduğu evi satmağa tələsirdi. İdarədə işləri yaxşı getmədiyi üçün Şahin Marqoya ev tikməyi yayacan təxirə saldı. Bu, qadının heç xoşuna gəlmədi.

Bir dəfə yenə də qonşu rayonda yaşayan Marqosuna baş çəkməyə getdi. Birinci dəfə idi ki, ona əvvəlcədən gələcəyini deməmişdi. Yenə taxta darvazanı açıb həyətə girəndə evdən gələn həzin musiqinin içindən eşidilən kişi səsini duydu. Maşında yol boyu gələndə içini bürüyən narahat və üzücü bir hissdən nəsə olacağı ürəyinə dammışdı. Qancığına yaxınlaşan erkəyi görən canavar kimi fınxırmağa, dərindən nəfəs almağa, yumruqlarını sıxıb sinəsinə, başına vurmağa başladı. Qəzəbdən qan beyninə vurdu, tez-tez nəfəs alıb özünü sakitləşdirməyə, neyləyəcəyini kəsdirməyə, necə hərəkət edəcəyini götür-qoy etməyə çalışdı. Əvvəlcə evə girmək istədi, sonra fikrindən dönüb geri qayıtdı, aldığı şeyləri maşına tullayıb yük yerini açdı. Ordan ağzı yenicə itilənmiş kiçik baltanı götürüb astaca evə yaxınlaşdı və gözləməyə başladı. Evdən yenə musiqi, arada Marqonun gülüşləri və ona qarışan kişi səsi gəlirdi. Nə qədər dinşəsə də, səsin sahibini tanımadı. Bu səslər onun əsəblərini daha da tarıma çəkir, qəzəbini artırırdı. Bəlkə də, uzaqlaşıb getsəydi, soyuq başla düşünər, daxilində belə tez və qəddarcasına qərar çıxarmazdı. Təqribən bir saat sonra qapı açıldı, bayıra çıxan adamı yola salan qadın qollarını onun boynuna dolayaraq üz-gözündən öpüb ayrıldı və qapını örtmək istəyəndə evdən düşən işıqda cığırın ortasında əli baltalı dayanmış tanış adamı gördü. O, möhkəm içini çəkərək cəld qapını örtdü və bu vaxt geri dönən yad adam başına endirilən zərbədən yayınmaq üçün yana atıldı. Ancaq balta sifətinə dəymişdi və qan üzündən şoralanıb axırdı. Şahin onun müdafiə olunmasına aman vermədən hara gəldi baltanı endirir, vururdu. Bir neçə zərbədən sonra kişi yıxıldı və hərəkətsiz qaldı. Şahin geri qayıdıb maşına oturdu. Həmin gün evə getmədi. Bacısıgilə gedib bacısının böyük oğlunu çağırdı. Evdə hamı yatmışdı. Onların hamamında yuyunub paltarını dəyişdi. Dayısının sağ əli olan və ağızdan möhkəm olan Səbuhi bir kəlmə söz soruşmadan onun yatağını hazırlayıb yatmağa getdi.

Aradan bir neçə gün keçmiş Şahin kişinin kim olduğunu Marqodan öyrəndi və ən dəhşətlisi də bu idi ki, adam ölməmiş, deyəsən, heç xəstəxanaya da getməmişdi. Milis də susurdu. Qadın həmin gecə Şahin getdikdən sonra həyətə çıxmış, kişinin ölmədiyini görmüş və çoxlu əski gətirib onun yaralarını zülmlə birtəhər sarımış, qonşuluqda yaşayan, Marqonun bir sözünü iki etməyən poçtalyon Şəmilin köməyi ilə taksi gətirdib adamı evinə yola salmışdı. Bütün bunları qadın ağlaya-ağlaya, qorxa-qorxa, Şahini qınaya-qınaya, ona qabaqdan-gəlmişdik etməyə çalışaraq danışdı. O, soyuq, etinasız və ikrah süzülən baxışlarını qadının üzündən yayındırmağa çalışaraq dinləyir, amma təkidlə həmin adamın kim olması barədə məlumat tələb edirdi. Marqodan kişinin adından başqa heç nə öyrənə bilmədi.

Bundan bir neçə gün sonra Şahin uzaqda, dağ rayonlarının birində yaşayan xalası oğlunun yanına gedərək ondan silah istədi:

- Xaloğlu, sizdə tapmaq asandı. Sənəd-zad məsələsini də yerbəyer eləsən, lap yaxşı olar. Düşmənim var, ehtiyatlı olmalıyam, - dedi.

Həmin günün səhəri patronları ilə birlikdə "Makar" tapançası alıb rayona qayıtdı.

Bundan sonra o, çox ehtiyatlı tərpənir, uşaqları xüsusilə qoruyur, onların evdən nəzarətsiz aralanmasına icazə vermirdi. Bu kabusun nə vaxtsa, faciə ilə bitəcəyini bilirdi - amma necə bitəcəyini düşünəndə bədənində qanı donurdu. Bir dəfə axşam işlərini yerbəyer edib evə qayıdanda kəndə dönən və bir tərəfi sahillərini qamış basmış kanalın yanı ilə gedən yola çıxanda yolu dolayı kəsmiş maşın gördü. Dərhal əlini atıb silahı götürmək istədi, amma silah yox idi: o dəqiqə ağlına anası gəldi. Həmişə onun maşınından, cibindən bıçaq, müxtəlif soyuq silahları götürüb gizlədir və: "Sənin düşmənin yox, istəməyənin yox, bala, bunları neyləyirsən, səni Allah qoruyar, mənim dualarım qoruyar," - deyirdi. Beynindən ildırım kimi keçən fikirlər arasında yadına oturacağın altına qoyduğu bir ucu itilənmiş gödək armatur düşdü. Onu cəld qapıb sürətini azaltdığı maşını saxladı və qapını açdı. Maşının qapısını örtməyə macal verməyən adam onun üzərinə atılaraq əlində tutduğu balta ilə onu vurmağa çalışdı. Maşının işığını qəsdən söndürməyən Şahin adamı işığa tərəf istiqamətləndirib müdafiə olunaoluna onun sifətinə baxdı. Sifətin bir neçə yerdən şırımlanmış və tikilmiş, eybəcər görünüşü onu diksindirdi. Adamın qəzəb və kindən hədəqəsindən çıxmış gözləri, kilidlənmiş dişləri arasından çıxan söyüşləri və bu söyüşləri dedikcə dartılan sifəti, təntiyətəntiyə, hirslə baltanı havada yellədərək onu vurmağa çalışması Şahini ani olaraq bu vəziyyətdə soyuqqanlı və daha fəndgir olmağa sövq etdi. O, imkan tapıb əlində tutduğu armaturla qəfildən kişinin balta tutan əlinə möhkəm bir zərbə ilişdirdi. Balta onun əlindən çıxıb qaranlıqda harasa fırıldadı və nəyəsə dəyib cingildədi. Adam dəli kimi Şahinin üzərinə atıldı və hər ikisi də süpürləşərək yerə yıxıldılar. Şahin girəvə tapıb əlində tutduğu armaturu var gücü ilə onun başına endirdi. Zərbə ölümcül oldu. Armatur adamın gicgahına pərçimlənmişdi. O, ayağa qalxıb uzun müddətdi qorxusunun kabusu ilə yaşadığı bu adama baxdı. His etdi ki, dizləri, əlləri əsir, bədəni sustalırdı.

*Davamı səhifə 19-da*

# Şərabdan şirin

*Əvvəli səhifə 18-də*

Özünü ələ aldı, bu səmtə maşın gələcəyindən, onu görəcəklərindən ehtiyat edərək cəld armaturu çıxarıb maşına qoydu, adamı sürüyüb kanala atdı. Maşına oturub qanlı əlləri ilə sükandan bərk-bərk yapışaraq motoru işə saldı və bir qədər getdikdən sonra armaturu da kanala tulladı, bacısıgilə gəlib Səbuhini çağırdı. Yuyunub yatdı. Səbuhi yenə bir söz soruşmadan dayısının qana bulaşmış maşınını və paltarlarını yuyub təmizlədi.

Səhər yerindən qalxanda qarışıq hisslərin altında əzilirdi - elə bilirdi o adamı aradan götürsə, rahatlanacaqdır. Amma o rahatlığın üstünə dağ kimi bir ağırlıq çökmüşdü və bu ağırlıq elə həmin gündən içini gəmirən, beynini, hisslərini kütləşdirən, ona gün-dirilik verməyən qara bir dumana dönüb həyatını da eləcə qaraltdı. Çox əsəbi olmuşdu. Evdə ən adi şeyə əsəbiləşir, arvad-uşağın üstünə qışqırır, idarədə işçilərlə codlaşırdı. İçinə qapanıb uzun müddət susur, donuq, ifadəsiz, key baxışlarını bir nöqtəyə zilləyərək dalıb gedirdi.

Öldürdüyü adamın oğlu ilə qarşılaşanda bu ağırlıq daha da çoxaldı. Bir dəfə idarəyə gələndə yeniyetmə bir oğlan görüb işçilərdən bunun kim olduğunu soruşdu:

Lətifin oğludu, - dedilər, - Bahadurdu. Səbuhi işə götürüb, sizinlə məsləhətləşəcəkdi, bizim restoranların birində işləyəcək, yazığın atasını keçən il öldürüb kanala atmışdılar. Anası da işləmir, neyləsin bədbəxt, ailələri dolanmır.

O, bircə dəfə uşağın gözlərinə baxdı və bu gözlərin dərinliyindəki ifadəni gözünün aynasından o tərəfə heç qova bilmədi.

Avqustun axırları idi. Restoranlara baş çəkib haqq-hesab aparan Səbuhi günortadan sonra rayondan evə qayıdarkən magistral yolda onun yanından güllə kimi ötüb keçən maşının nömrəsindən dayısının maşınını tanıdı. Hava isti olduğu üçün bu vaxtı yolda nəqliyyat az olurdu. Amma yenə də bu qədər sürətlə getmək təhlükəli idi. O, sürəti artıraraq dayısına çatmağa çalışır, arada siqnal verirdi. Lakin Şahinin maşını getdikcə uzaqlaşır və sürəti artırırdı. Səbuhi həyəcanla:

- Dayı, qurban olum, belə eləmə, qurban olum, noolub sənə, əcələ tərəf gedirsən, dayı, dayan, yavaş, dayı, - deyə öz-özünə, inildəyə-inildəyə pıçıldayırdı.

Birdən Səbuhi düzənliklə uzanıb gedən yolun bir neçə yüz metr uzaqlığında, gözünün qarşısında kəllə-kəlləyə gələn maşınların taqqıltısını eşidib dondu. Göyə fırıldayan maşının rəngindən dayısının maşınını tanıdı. Ürəyi atlana-atlana sürəti artırıb ora yaxınlaşdı. İki-üç nəfər adam öz maşınından düşüb hadisə yerinə tərəf qaçırdı. Səbuhi dizləri əsə-əsə, dayısının milyonda bir sağ qalma ümidinə yalvara-yalvara maşına yaxınlaşaraq ərvağı dönmüş bir ailənin başçısının təpəsi üstə çevrilmiş tüstüləyən maşınından Şahinin meyitini çıxarıb yolun kənarına uzatdı. Gicgahına batmış iki-üç qarış uzunluğunda dəmir parçasını çıxarıb tulladı. Onun başından axan qan yolun kənarında bitmiş və öz əcəlinə sürət götürən adamın aqibətinə vücudları kimi matı-qutu qurumuş otların arası ilə axaraq bu yayın cırhacırında uzun müddətdir yağışa həsrət qalan, su gözləyən bitkilərə isti qan içirirdi. Səbuhi dayısının başı üzərində diz üstə çöküb hönkür-hönkür ağladı...

...Sonralar nə Şahinin nə də Lətifin xəbəri olmadı: Lətifin oğlu institutu qiyabi oxuya-oxuya həmin idarənin ən vacib adamlarından birinə çevriləcək və bir gün bibisi oğlunu görməyə gələn Şahinin istəkli qızı Leylaya vurulacaq. Lətifin oğlu Bahadur əvvəllər yuxusuna sağlam, əvvəlki vaxtlarındakı kimi gözəl görkəmdə girən atasının niyə indi o cür üzü şırımlı, danışanda tikişlərin dartıb eybəcər hala saldığı vaxtını tez-tez görəcək, ona narazı-narazı baxan atasının nə demək istədiyini heç anlamayacaq. Onun Leyla ilə toyundan iki-üç il sonra restoranların birində ofisiant işləyən və danışığından hansı millətin nümayəndəsi olduğu bilinən çox gözəl, işvəli bir qızı görən Bahadur bunun kim olduğunu soruşacaq:

- Marqonun qızıdı, - deyəcəklər, - anası daha işləmədi, Yerevana köçüb, qızını yerinə götürüblər, Stepanakertdə institutda qiyabi oxuyur.

Bahadurun gözləri qızın bütün vücudunu gəzəcək: bu, onun gözləri olmayacaq - İblis sevinclə, bic-bic, qanlı dodaqlarını yalaya-yalaya, meydan sulaya-sulaya, Bahadurun qulaqlarını, gözlərini, dilini və ağlını əlindən dördəlli alaraq, bu duyğu üzvlərinin hamısını öz fitnəsinə yönəldərək onun gözlərindən qıza baxacaq...

**Kaspi.- 2018.- 26 may.- S. 19.**